**UOT: 338.48**
https://doi.org/10.59849/2409-4838.2025.4.150

# ZAQATALA RAYONUNUN TURİZM POTENSİALI: İNKİŞAF PERSPEKTİVLƏRİ VƏ MÖVCUD MƏŞĞULLUQ İMKANLARI

**Aygün Çingiz qızı İsmayılova**
AMEA-nın Şəki Regional Elmi Mərkəzi, Şəki, Azərbaycan
ismayilovaaygun577@gmail.com

*Məqalədə Zaqatala rayonunun turizm potensialı və bu potensialdan istifadə etməklə əhalinin məşğulluq imkanları araşdırılmışdır. Tədqiqat çərçivəsində regionun təbii-landşaft xüsusiyyətləri, mədəni irsi, ekoturizm və aqroturizm imkanları qiymətləndirilmiş, mövcud infrastrukturun vəziyyəti təhlil olunmuşdur. Araşdırma zamanı mütəxəssislərlə aparılan müsahibələr, yerli idarəetmə orqanlarının hesabatları və turizm sahəsində fəaliyyət göstərən müəssisələrin məlumatları əsasında GZİT (SWOT) təhlili həyata keçirilmişdir.*

*Təhlilin nəticələri göstərir ki, Zaqatala rayonunun turizm sektoru yüksək inkişaf potensialına malikdir. Bununla belə, infrastrukturun və marketinq strategiyalarının zəifliyi, həmçinin turizm xidmətlərinin keyfiyyətinin artırılması zərurəti müşahidə olunur. Araşdırmada yerli əhalinin turizm sahəsində məşğulluq səviyyəsi və bu sahədə qarşılaşdıqları əsas problemlər də müəyyən edilmişdir. Məqalədə eyni zamanda, alternativ turizm növlərinin (ekoturizm, aqroturizm və s.) inkişaf etdirilməsi, yeni turizm marşrutlarının müəyyənləşdirilməsi və klasterləşmə əsasında dayanıqlı turizm inkişafının təmin olunması ilə bağlı təkliflər irəli sürülmüşdür.*

***Açar sözlər:*** *Zaqatala, turizm potensialı, məşğulluq, sosial-iqtisadi inkişaf, turizm klasterləri, turizm marşrutları*

## GİRİŞ

***Turizmin məşğulluq yaratma potensialı***

Turizm sektoru qlobal iqtisadiyyatın strateji əhəmiyyət kəsb edən sahələrindən biri olaraq formalaşmış və onun inkişafı həm makroiqtisadi, həm də sosial-siyasi kontekstlərdə mühüm təsirlərə malikdir. Qloballaşma proseslərinin sürətlənməsi, müasir texnologiyaların tətbiqi və beynəlxalq inteqrasiyanın genişlənməsi turizm sektorunun inkişaf dinamikasını daha da gücləndirmişdir [14]. Turizm yalnız iqtisadi göstəricilərə — Ümumi Daxili Məhsulun (ÜDM) artımı, xarici valyuta gəlirlərinin artması və regional investisiyaların cəlbi — təsir göstərməklə kifayətlənmir; eyni zamanda, sosial strukturun formalaşmasına, mədəni irsin qorunmasına və yerli icmaların rifah səviyyəsinin yüksəldilməsinə strateji töhfələr verir [21]. Xüsusilə inkişaf etməkdə olan ölkələr üçün turizmin inkişafı yeni iş yerlərinin yaradılması, regionların iqtisadi fəallığının artırılması və dayanıqlı inkişafın təşviqi baxımından mühüm imkanlar yaradır.

Azərbaycan bu ümumi qlobal tendensiyadan kənarda qalmamış və turizm sektorunun inkişafını dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevirmişdir. Bu istiqamətdə atılan əsas addımlar arasında 2010-cu ildə Prezident İlham Əliyevin imzaladığı “Azərbaycan Respublikasında 2010–2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı”, 2008-ci il 15 sentyabr tarixli № 3043 saylı “2008–2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı” və 2016-cı il tarixli “Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi” xüsusi yer tutur [2, 3, 4]. Bu sənədlər turizmin milli iqtisadiyyatdakı rolunun artırılmasını, turizm infrastrukturunun müasirləşdirilməsini və ölkənin beynəlxalq turizm bazarında rəqabət qabiliyyətinin gücləndirilməsini nəzərdə tutur.

Bundan əlavə, 22 iyul 2022-ci il tarixli, № 3378 saylı fərmanla təsdiqlənmiş "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" turizmi prioritet sahələrdən biri kimi müəyyən etmişdir [5]. Bu yanaşma yalnız regional turizmin stimullaşdırılmasını deyil, həm də yerli icmaların sosial-iqtisadi inkişafının dəstəklənməsini və mədəni irsin qorunmasını hədəfləyir, beləliklə, dövlət səviyyəsində turizmin inkişafına kompleks yanaşma təmin olunur.

Dövlət səviyyəsində aparılan təşviq və strateji yanaşmalar Azərbaycanın unikal təbii-landşaft xüsusiyyətləri, zəngin tarixi-mədəni irsi, əlverişli iqlimi və etnik-mədəni müxtəlifliyi ilə birləşdikdə ölkənin yüksək turizm potensialının səmərəli şəkildə reallaşdırılmasına imkan yaradır. Belə bir potensialdan effektiv istifadə etmək üçün tematik və rəqabətqabiliyyətli turizm marşrutlarının formalaşdırılması, eləcə də müxtəlif turizm məhsullarının inkişaf etdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Nəticədə bu yanaşma turist axınının artmasına, regionlarda iqtisadi fəallığın yüksəlməsinə və yerli əhalinin məşğulluq imkanlarının genişlənməsinə birbaşa təsir göstərir.

Bu kontekstdə Azərbaycanın Şimal-Qərb bölgəsində yerləşən Zaqatala rayonu öz zəngin təbii resursları, tarixi və mədəni irsi, ekoturizm və aqroturizm imkanları ilə fərqlənir. Rayonun bu xüsusiyyətləri burada turizmin davamlı inkişafı üçün əlverişli baza yaradır və regionun sosial-iqtisadi inkişafına mühüm töhfə vermək potensialına malikdir.

Aparılan tədqiqatın əsas məqsədi Zaqatala rayonunda turizmin inkişafına mane olan amillərin təhlil edilməsi, eləcə də turizmin yerli əhalinin məşğulluğuna, sosial rifahına və kənd yerlərinin davamlı inkişafına təsirinin qiymətləndirilməsidir. Bu məqsədə nail olmaq üçün aşağıdakı tədqiqat vəzifələri müəyyən edilmişdir:

- Zaqatala rayonunun turizm potensialının və infrastruktur vəziyyətinin təhlili;
- Turizm sektorunda mövcud olan əsas problemlərin müəyyənləşdirilməsi və onların həlli istiqamətində təkliflərin hazırlanması;
- Turizmin yerli iqtisadi inkişaf və əmək bazarına təsirinin qiymətləndirilməsi;
- Ekoturizm, aqroturizm və digər alternativ turizm növlərinin inkişaf perspektivlərinin araşdırılması;
- Rəqabətqabiliyyətli turizm marşrutlarının müəyyən edilməsi və bu marşrutlara uyğun turizm klasterlərinin formalaşdırılması imkanlarının araşdırılması.

***Zaqatala rayonunun turizm potensialının ümumi təhlili***

Zaqatala rayonu Azərbaycan Respublikasının şimal-qərbində, Böyük Qafqaz sıra dağlarının cənub ətəklərində yerləşir və 1.348 km$^2$ ərazini əhatə edir. İnzibati mərkəzi Zaqatala şəhəri olan rayon zəngin təbii sərvətləri və müxtəlif ekosistemləri ilə seçilir. Özünəməxsus coğrafi mövqeyi ilə ölkənin digər bölgələrindən fərqlənən Zaqatala, paytaxt Bakıdan təqribən 430 km məsafədə yerləşir. Rayon şimalda Rusiya Federasiyasının Dağıstan Respublikası, cənubda Gürcüstan, qərbdə Balakən, şərqdə isə Qax rayonları ilə həmsərhəddir [7]. Bu mövqe, regionun həm daxili, həm də beynəlxalq turizm və iqtisadi əlaqələrinin inkişafı baxımından mühüm strateji əhəmiyyət daşıyır.

Rayonun relyefi əsasən iki zonaya bölünür: şimal-şərq hissəsi dağlıq, cənub və cənub-qərb hissələri isə düzənlik ərazilərdən ibarətdir. Bu müxtəliflik ekoturizm və rekreasiya imkanlarını artırır. Xüsusilə, yay aylarında 700–1000 metr yüksəklikdə yerləşən Qəbizdərə, Yuxarı Çardaxlar, Qalal, Cimcimax, Ələsgər, Meşleş, Yuxarı Suvagil və Car kəndləri turizm baxımından cəlbedici ərazilər hesab olunur. Bununla belə, dağlıq ərazilərə gedən yolların infrastruktur baxımından zəif inkişaf etməsi, turizm potensialının tam reallaşdırılmasına maneə törədir [25].

Zaqatala rayonu flora baxımından da zənginliyilə fərqlənir. Burada Azərbaycan florasının təxminən dörddə birini təşkil edən, 1000-dən artıq bitki növü mövcuddur. Rayonun ərazisində yerləşən və 23.800 hektar sahəni əhatə edən Zaqatala Dövlət Təbiət Qoruğu, ekoloji mühafizə və ekoturizm baxımından mühüm əhəmiyyətə malikdir. Qoruğun ərazisində yerləşən Zaqatala şəlaləsi, Xalaxi gö-

lü və Malarasa aşırımı kimi turistik obyektlər rayonun turizm potensialını artırır. Rayonun ümumi meşə sahəsi 48.659 hektar təşkil edir ki, bu da ümumi ərazinin 36,09%-nə bərabərdir [7, 8]. Meşələr əsasən qoruyucu, sanitar və ekoloji funksiyalara malik olmaqla yanaşı, turizm resursu kimi də yüksək əhəmiyyət daşıyır.

Rayonun hidroqrafik şəbəkəsi diqqətəlayiqdir. Ərazidə Qanıx (Alazan), Muxax (Qaraçay), Tala və Katex kimi böyük çaylar axır [8]. Xüsusilə, Katex çayının qolları olan Poçigelçay və Kilsəçayın birləşdiyi ərazidə yerləşən sulfatlı-mineral bulaqlar rayonun rekreasiya və sanatoriya turizmi imkanlarını genişləndirir.

İqlim şəraiti baxımından Zaqatala rayonu rütubətli subtropik iqlim zonasına daxildir. Düzənlik ərazilərdə iqlim mülayim, dağlıq sahələrdə isə daha sərt və sərin olur. Bu iqlim xüsusiyyətləri kənd təsərrüfatının müxtəlif sahələrinin inkişafı üçün əlverişli şərait yaradır [19]. Xüsusilə, taxılçılıq, tütünçülük, meyvəçilik və tərəvəzçilik rayonun aparıcı kənd təsərrüfatı sahələri sırasında yer alır. Zaqatala rayonunun sənaye sektorunda əsasən yeyinti məhsullarının istehsalı üzrə ixtisaslaşmış müəssisələr — fındıq emalı zavodları, tütün fermentasiya müəssisələri və efir yağı istehsalı zavodları fəaliyyət göstərir ki, bu da rayonun iqtisadi dayanıqlığını təmin edən əsas amillərdəndir [9].

Zaqatala rayonu inzibati baxımdan bir şəhər, iki qəsəbə və 59 kənddən ibarətdir; inzibati mərkəzi isə Zaqatala şəhəridir. Rayonun ümumi əhali sayı 130 971 nəfər təşkil edir ki, bunun 33 135 nəfəri şəhər ərazisində yaşayır. Əhalinin etnik tərkibi çoxmillətlidir və əsasən ləzgi, avar, saxur, ingiloy və digər etnik qruplardan ibarətdir ki, bu da bölgənin mədəni müxtəlifliyini və sosial dinamikasını əks etdirir [6].

Turizm baxımından Zaqatala rayonu region üçün strateji əhəmiyyətə malikdir. Bu əhəmiyyət həm onun təbii resursları, həm də mədəni irsi ilə əlaqədardır. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin 2024-cü il üçün "Mehmanxana (hotel) və mehmanxana tipli obyektlərin fəaliyyəti haqqında" bülleteninə əsasən, rayon ərazisində 14 turizm obyekti fəaliyyət göstərir və bu obyektlərin ümumi birdəfəlik tutumu 485 nəfər təşkil edir ki, bu da turizm infrastrukturunun ilkin həcmini göstərir [24].

Bundan əlavə, 23 aprel 2025-ci il tarixində AMEA Şəki Regional Elmi Mərkəzinin Ekoloji Coğrafiya şöbəsinin əməkdaşları tərəfindən aparılan sahə tədqiqatları zamanı (Şəkil 1), Car (Hope Lake), Qəbizdərə (Osmanlı Guest House, Ay işığı), Mazıx (Şəlalə) və Meşleş kəndlərində turizm sahibkarları ilə keçirilən sorğular nəticəsində müəyyən edilmişdir ki, həmin kəndlərdə 80-dən çox fərdi qonaq evi, o cümlədən gündəlik kirayə evlər fəaliyyət göstərir. Bu məkanlar turistlər üçün yüksək xidmət standartlarını təmin edir və həm yerli, həm də xarici turistlər tərəfindən aktiv şəkildə istifadə olunur.

**MATERİAL VƏ METODLAR**

Araşdırma aparılarkən mövzu ilə bağlı geniş elmi ədəbiyyat təhlil edilmiş, həm yerli, həm də xarici tədqiqatçılara istinad olunmuşdur. Bu kontekstdə Abadov M.K., Müseyibov M., Budaqov B., Əhmədov N., Əzəmmədov S., İmrani Z.T., Məmmədov E.Q., Rəsulova M., Bəhərçi T., və Zeynalova K.Z. kimi yerli tədqiqatçıların elmi işləri, eləcə də Лопатников Д.Л., Sezgin, M., Porter M.E. kimi elm adamlarının araşdırmaları istifadə olunmuşdur. Mənbələr Zaqatala rayonunun turizm potensialının elmi əsaslarla qiymətləndirilməsi və məşğulluq problemləri ilə əlaqələndirilməsi üçün əsas yaratmışdır.



**Şəkil 1.** AMEA Şəki REM-in Ekoloji Coğrafiya şöbəsinin əməkdaşlarının Zaqatala (Car, Qəbizdərə, Mazıx) rayonunda turizm obyektlərinin tədqiqi fəaliyyətindən görüntülər (23-24.04.2025)

Tədqiqatın informasiya bazasını Azərbaycan Respublikasının dövlət orqanları tərəfindən təqdim olunan rəsmi sənədlər, müvafiq prezident fərman və sərəncamları, eləcə də sektorla bağlı dövlət proqramları təşkil etmişdir. Əldə olunan ilkin məlumatlar əsasən Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin (AR DSK) rəsmi statistik göstəricilərindən, Zaqatala Turizm İnformasiya Mərkəzindən, Zaqatala Rayon Statistika İdarəsindən, həmçinin Zaqatala şəhər inzibati ərazi dairələri üzrə icra nümayəndəlikləri ilə aparılan müsahibələrdən əldə olunmuşdur. Bununla yanaşı, yerli idarəetmə orqanlarının illik hesabatları və turizm sektoru üzrə fəaliyyət göstərən müəssisələrin təqdim etdiyi məlumatlar da araşdırmaya daxil edilmişdir. Rayonun turizm imkanlarının daha dolğun və obyektiv qiymətləndirilməsi məqsədilə Mazıx, Qəbizdərə və Car ərazilərində sahə müşahidələri həyata keçirilmiş, yerli əhali və turizm sektorunun iştirakçıları arasında rəy sorğuları aparılmışdır.

Əldə olunmuş məlumatlar əsasında Zaqatala rayonunun turizm potensialının qiymətləndirilməsi ilkin mərhələdə GZİT (SWOT) təhlili metodologiyası əsasında aparılmışdır (Cədvəl 1). Bu kontekstdə rayonun turizm imkanları ilə bağlı güclü tərəflər (təbii-landşaft resurslarının zənginliyi, əlverişli coğrafi mövqe və s.), zəif cəhətlər (nəqliyyat infrastrukturunun qeyri-kafi inkişafı, xidmət sahəsindəki geriliklər), eləcə də mövcud inkişaf imkanları və mümkün təhdidlər müəyyən edilmişdir.

**Cədvəl 1.**

Zaqatala rayonunun turizm potensialının qiymətləndirilməsi üzrə GZİT təhlili

| GÜCLÜ TƏRƏFLƏR | ZƏİF TƏRƏFLƏR |
|---|---|
| - Müxtəlif landşaft tiplərinin (dağlıq, meşəlik, çay vadiləri) mövcudluğu ekoturizm və macəra turizmi üçün əlverişli şərait yaradır.<br><br>- Müalicəvi sular, balneoloji-iqlim resursları | - Yol və nəqliyyat infrastrukturunun əsas iqtisadi mərkəzlərdən uzaq yerləşməsi logistikanı çətinləşdirir.<br><br>- Turizm və qonaqpərvərlik sahəsində |

| | |
|---|---|
| və estetik cəhətdən cazibədar relyef formaları turizm üçün əlverişli mühit yaradır.<br><br>- Tarixi və mədəni irsin zənginliyi mədəni turizmə potensial yaradır.<br><br>- Gürcüstan və Dağıstanla sərhəd qonşuluq beynəlxalq turizm və ticarət üçün əlverişli şərait yaradır.<br><br>- Mineral və termal sular sağlamlıq və spa turizmi üçün imkanlar təqdim edir.<br><br>- Beynəlxalq hava limanının olması bölgəyə rahat giriş imkanı yaradır.<br><br>- Zaqatala Dövlət Təbiət Qoruğu və digər təbii ərazilər biomüxtəlifliyə əsaslanan turizm imkanlarını genişləndirir.<br><br>- Avar, saxur, ingeloy və digər etnik qrupların birgə yaşadığı tolerant çoxmillətli və multikultural cəmiyyətin mövcudluğu mədəni turizmin inkişafı üçün sosial zəmin yaradır.<br><br>- Aqroturizm üçün əlverişli kənd təsərrüfatı sahələri (baramaçılıq, çayçılıq, tütünçülük və s.).<br><br>- Ekoloji təmiz kənd təsərrüfatı məhsulları (bal, fındıq, çay və s.) qastronomik turizmi stimullaşdırır. | ixtisaslaşmış insan resurslarının məhdudluğu göstərir ki, bu sektorun inkişafı üçün insan kapitalının gücləndirilməsinə ehtiyac vardır.<br><br>- Kənd təsərrüfatı əsaslı iqtisadiyyat və zəif inkişaf etmiş emal sənayesi iqtisadi müxtəlifliyi məhdudlaşdırır.<br><br>- Kəndlərarası əlaqələrin zəifliyi və dağınıq yerləşmə infrastruktur və marketinq üçün çətinlik yaradır.<br><br>- Abidələrin bərpası və müasir turizm infrastrukturunun yaradılmasında çətinliklər mövcuddur.<br><br>- Mehmanxana və qonaqlama xidmətlərinin məhdud olması turist axınını məhdudlaşdırır.<br><br>- Turizmin brendləşdirilməsi və marketinq sahəsində zəif strategiyalar.<br><br>- Mövsümi asılılıq turizm gəlirlərinin davamlılığını çətinləşdirir.<br><br>Zaqatala rayonunda turizm sektorunun inkişaf etdirilməsi üçün klasterlərin formalaşdırılması tətbiqi və resursların sistemli idarə olunmasında investisiya təşviqi zəruridir. |
| **İMKANLAR** | **TƏHDİDLƏR** |
| - Alternativ turizm növlərinin (ekoturizm, dağ turizmi, aqroturizm, etnoturizm) inkişaf etdirilməsi üçün geniş potensial mövcuddur.<br>- Günəş, külək və hidroenerji potensialı çərçivəsində yaşıl enerji layihələrinin inkişafı mümkündür.<br>- Beynəlxalq nəqliyyat şəbəkələrinə inteqrasiya (dəmir yolu, avtomobil və hava nəqliyyatı) regionun əlçatanlığını artırır.<br>- Sənaye və kənd təsərrüfatı sahələrinə investisiya cəlbi – mövcud xammal bazası investorlar üçün cəlbedici resurs təqdim edir. | - Kənd təsərrüfatı və ekosistemlərə iqlim dəyişikliyinin mənfi təsirləri.<br>- Məşğulluq imkanlarının məhdudluğu səbəbilə kadr itkisi problemi. Gənclərin bölgədən kənara miqrasiyası.<br>- Turizm və biznes sahələrinə yerli və xarici sərmayələrin azlığı infrastruktur inkişafını məhdudlaşdırır.<br>- Qlobal iqtisadi və geosiyasi qeyri-sabitlik turizm axını və ticarət əlaqələrini mənfi təsirə məruz qoya bilər.<br>- Azərbaycanın digər turizm bölgələri ilə rəqabət şəraitində fərqləndirici və dayanıqlı |

| | |
|---|---|
| - Dövlət tərəfindən turizm və kənd təsərrüfatı sahələrinə göstərilən subsidiyalar və dəstək proqramları inkişafı sürətləndirə bilər.<br>- Gürcüstan və Rusiya ilə iqtisadi əməkdaşlığın genişləndirilməsi xarici bazarlara çıxış üçün yeni imkanlar yaradır. | strateji yanaşmaların formalaşmaması Zaqatalanı ikinci planda qoya bilər.<br>- Pandemiya və digər qlobal fövqəladə vəziyyətlər turizm sektorunun dayanıqlığını zəiflədə bilər. |

*Mənbə: Müəllif tərəfindən Zaqatala rayonunun turizm potensialına dair ilkin araşdırmalar, müşahidələr və ədəbiyyat [1, 9, 12, 13, 20] təhlilləri əsasında tərtib edilmişdir.*

## NƏTİCƏLƏR VƏ ONLARIN MÜZAKİRƏSİ

Ərazi iqtisadi inkişafı, bir regionun sosial-iqtisadi potensialı və resurslarının səmərəli istifadəsinin qiymətləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Sosial-iqtisadi potensialın və təbii resursların səmərəli istifadəsi yerli əhalinin rifah səviyyəsinin yüksəldilməsinə birbaşa təsir göstərir [26]. Bu kontekstdə, Zaqatala rayonunun inkişaf səviyyəsinin ölçülməsi yalnız yerli iqtisadiyyatın gücünü deyil, həm də regional tarazlığın təmin edilməsində əhəmiyyətli bir addım olaraq nəzərdən keçirilə bilər. Araşdırmanın əsas məqsədi Zaqatala rayonunun ərazi-iqtisadi inkişaf səviyyəsini qiymətləndirmək və mövcud resurs potensialını müəyyənləşdirməkdir. Bu məqsədlə araşdırmada Zaqatala rayonunun inkişaf səviyyəsinin qiymətləndirilməsi nəzərdə tutulmuşdur. Bu məqsədlə D.L. Lopatnikovun təklif etdiyi Ərazi İqtisadi İnkişaf İndeksi (Əİİİ) metodikasından istifadə edilmişdir [26]. Bu indeks iqtisadi inkişafın səviyyəsini ümumi daxili məhsul (ÜDM) ilə əhali sayı və ərazi sahəsinin nisbəti əsasında qiymətləndirməyə imkan verir (Cədvəl 2).

İndeksin hesablanması üçün D.L. Lopatnikovun təklif etdiyi aşağıdakı riyazi model (1) tətbiq olunmuşdur:

$$I = 0.1\sqrt{\frac{V^2}{N \cdot S}}\#\#(1)$$

Burada,
*I* – Ərazi iqtisadi inkişaf indeksi;
*V* – Ümumi Daxili Məhsulun (ÜDM) dəyəri (mln. manat);
*N* – Əhalinin sayı (min nəfər);
*S* – Ərazinin sahəsi (min kv.km ilə).

**Cədvəl 2.**

Zaqatala rayonunun Ərazi İqtisadi İnkişaf İndeksinin müqayisəli təhlili

| İnzibati rayonlar | Sahə (min km$^2$) | Əhali (min. nəfər) | ÜDM (min.man) | Ərazi İqtisadi İnkişaf İndeksi |
|---|---|---|---|---|
| Ümumi ölkə üzrə | 86.6 | 10 160 648 | 92 829,5 | 48,4 |
| Şəki-Zağatala İqtisadi Rayonu | 8.96 | 626.6 | 1081.9 | 1.44 |
| Balakən | 0.94 | 99.9 | 112.2 | 1.16 |
| **Zaqatala** | **1.35** | **126.9** | **87.9** | **0.67** |
| Qax | 1.49 | 57.4 | 263.0 | 2.84 |
| Şəki | 2.43 | 189.0 | 95.9 | 0.45 |
| Oğuz | 1.08 | 45.2 | 178.3 | 2.55 |
| Qəbələ | 1.55 | 107.7 | 344.6 | 2.67 |

***Mənbə:*** *Tədqiqat AR DSK-nin 2023-cü ilin rəsmi məlumatları əsasında müəllif tərəfindən tərtib və təhlil edilmişdir.*

Cədvəl 2-də təqdim edilən məlumatlar, Şəki-Zaqatala iqtisadi rayonuna daxil olan inzibati rayonların ƏİİI göstəricilərinə əsaslanaraq, iqtisadi inkişaf səviyyələrini müqayisə etməyə imkan verir. Hesablamalar göstərir ki, Zaqatala rayonunun ƏİİI göstəricisi 0.67-dir, bu da onun iqtisadi inkişaf səviyyəsinin və turizm sektorunun digər rayonlarla müqayisədə daha zəif olduğunu ortaya qoyur. Xüsusilə, Qax (2.84), Oğuz (2.55) və Qəbələ (2.67) rayonlarının müvafiq göstəriciləri Zaqatala ilə müqayisədə əhəmiyyətli dərəcədə yüksəkdir. Zaqatala rayonunun ƏİİI göstəricilərinin digər rayonlarla müqayisəsi göstərir ki, regionun iqtisadi potensialı tam şəkildə istifadə olunmur. Bu, xüsusən turizm sektorunun inkişafı üçün mövcud olan potensialın səmərəli şəkildə istifadə edilməməsi ilə əlaqəlidir. Zaqatalanın iqtisadi inkişafının zəif olması yalnız turizm sahəsi ilə məhdudlaşmamalıdır; əksinə, yerli iqtisadiyyatın şaxələndirilməsi, kənd təsərrüfatı, sənaye və xidmət sektorlarının inkişafına yönəlik strateji yanaşmalara ehtiyac vardır.

Zaqatala rayonunda turizm sektorunun inkişaf meyillərini və bu inkişafın regional əmək bazarına təsirini təhlil etmək məqsədilə 2017–2024-cü illəri əhatə edən dövr üzrə mehmanxana və mehmanxana tipli obyektlərin iqtisadi göstəriciləri araşdırılmışdır. Bu məqsədlə aşağıda təqdim olunan 3 və 4-cü cədvəllərdə müvafiq olaraq, həmin obyektlərdən əldə olunan gəlirlər və burada çalışan işçilərin sayı göstərilmişdir.

**Cədvəl 3.**

Zaqatala rayonunun mehmanxana (hotel) və mehmanxana tipli obyektlərin gəlirləri, min manat

| İl | Ölkə üzrə cəmi | Şəki-Zaqatala iqtisadi rayonu | Zaqatala rayonu | Zaqatala rayonu / Ölkə üzrə payı (%) | Zaqatala rayonu / Şəki-Zaqatala iqtisadi rayonu (%) |
|---|---|---|---|---|---|
| 2017 | 284454,0 | 19688,7 | 389,9 | 0,14% | 1,98% |
| 2018 | 359453,0 | 35450,9 | 513,4 | 0,14% | 1,45% |
| 2019 | 450188,5 | 34885,9 | 491,3 | 0,11% | 1,41% |
| 2020 | 116798,0 | 11380,0 | 253,8 | 0,22% | 2,23% |
| 2021 | 209687,3 | 20815,7 | 340,0 | 0,16% | 1,63% |
| 2022 | 355322,1 | 32350,2 | 360,8 | 0,10% | 1,11% |
| 2023 | 488828,0 | 41223,6 | 416,0 | 0,09% | 1,01% |
| 2024 | 694 162,2 | 44 900,1 | 533,5 | 0.08% | 1.19% |

***Mənbə:*** *Cədvəl AR DSK-nin 2017-2024-cü il məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Cədvəl 3-ə baxdıqda aydın olur ki, 2017–2024-cü illər ərzində Zaqatala rayonunda mehmanxana və mehmanxana tipli obyektlərdən əldə edilən gəlirlərdə müəyyən artım müşahidə olunsa da, bu artımın tempi həm ölkə üzrə, həm də Şəki-Zaqatala iqtisadi rayonu ilə müqayisədə daha zəif olmuşdur. Belə ki, 2017-ci ildə rayonda turizm obyektlərindən əldə edilən gəlirlər 389,9 min manat təşkil etdiyi halda, 2018-ci ildə bu göstərici 513,4 min manata yüksəlmiş və nəticədə 31,7%-lik artım qeydə alınmışdır. Lakin 2019-cu ildə gəlirlər 491,3 min manat səviyyəsinə enmiş, bu isə 2018-ci illə müqayisədə 4,3%-lik azalma deməkdir.

Ən ciddi geriləmə 2020-ci ildə COVID-19 pandemiyasının təsiri ilə baş vermiş, həmin il gəlir 253,8 min manata qədər azalmış və bu, 2019-cu illə müqayisədə 48,4%-lik geriləməni əks etdirmişdir. Bu azalma təkcə Zaqatala rayonu üçün deyil, ümumilikdə ölkə üzrə turizm sektorunun üzləşdiyi çətinliklərin regional təzahürüdür. Post-pandemiya dövründə, yəni 2021–2024-cü illərdə isə gəlirlərdə bir qədər bərpa olunma müşahidə edilmişdir. Belə ki, 2021-ci ildə gəlir 340,0 min manat (2020-ci illə müqayisədə 34%-lik artım), 2022-ci ildə 360,8 min manat (6,1%-lik artım), 2023-cü ildə isə 416,0 min manat (15,3%-lik artım) təşkil etmişdir. 2024-cü ildə bu göstərici 533,5 min manata yüksəlmişdir ki, bu da əvvəlki illərlə müqayisədə nəzərəçarpacaq artımı nümayiş etdirir.

Zaqatala rayonunun ölkə üzrə və Şəki-Zaqatala iqtisadi rayonu üzrə ümumi gəlir həcmi ilə müqayisəsi göstərir ki, rayonun payı illər ərzində azalma meyli göstərmişdir. Belə ki, 2017-ci ildə bu pay ölkə üzrə 0,14% təşkil etdiyi halda, 2023-cü ildə 0,09%-ə, 2024-cü ildə isə 0,08%-ə enmişdir. Oxşar azalma Şəki-Zaqatala iqtisadi rayonu üzrə də müşahidə olunur: 2017-ci ildə 1,98% olan pay, 2023-cü ildə 1,01%-ə düşmüş, 2024-cü ildə isə cüzi artımla 1,19%-ə çatmışdır.

Bu göstəricilər əsasında belə nəticəyə gəlmək olar ki, Zaqatala rayonunda turizm sahəsinin mövcud potensialından tam istifadə edilmir. Gəlirlərdəki artım, region və ölkə üzrə artımdan aşağıdır.

Cədvəl 4-də 2017–2024-cü illərdə Azərbaycanda mehmanxana və mehmanxana tipli obyektlərdə çalışan işçilərin ümumi sayı, o cümlədən Şəki-Zaqatala iqtisadi rayonunun və xüsusilə Zaqatala rayonunun göstəriciləri təqdim olunmuşdur.

**Cədvəl 4.**

Mehmanxana (hotel) və mehmanxana tipli obyektlərdə çalışan işçilərin sayı və pay göstəriciləri (2017-2024)

| İl | Ölkə üzrə cəmi | Şəki-Zaqatala iqtisadi rayonu | Zaqatala rayonu | Şəki-Zaqatala İR-in ölkə üzrə payı (%) | Zaqatala rayonunun ölkə üzrə payı (%) | Zaqatala rayonunun Şəki-Zaqatala İR üzrə payı (%) |
|---|---|---|---|---|---|---|
| 2017 | 10,015 | 1,459 | 62 | 14,6 | 0,62 | 4,25 |
| 2018 | 11,407 | 1,783 | 43 | 15,6 | 0,38 | 2,41 |
| 2019 | 12,481 | 1,828 | 44 | 14,6 | 0,35 | 2,41 |
| 2020 | 10,731 | 1,298 | 43 | 12,1 | 0,40 | 3,31 |
| 2021 | 11,143 | 1,250 | 44 | 11,2 | 0,39 | 3,52 |
| 2022 | 12,314 | 1,402 | 47 | 11,4 | 0,38 | 3,35 |
| 2023 | 13,608 | 1,405 | 53 | 10,3 | 0,39 | 3,77 |
| 2024 | 15 202 | 1 462 | 53 | 9,62 | 0,35 | 3,63 |

***Mənbə:*** *Cədvəl Azərbaycan Dövlət Statistika Komitəsinin 2017-2024-cü il məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Aparılmış təhlillər nəticəsində müəyyən edilmişdir ki, araşdırılan dövr ərzində ölkə üzrə turizm sektorunda çalışan işçilərin sayı ardıcıl artım nümayiş etdirmişdir. Belə ki, 2017-ci ildə ümumilikdə 10.015 nəfər bu sahədə çalışdığı halda, 2024-cü ildə bu göstərici 15.202 nəfərə çatmış və bu, 51,7%-lik artıma bərabər olmuşdur.

Şəki-Zaqatala iqtisadi rayonu üzrə göstəricilərə nəzər saldıqda isə məlum olur ki, baxmayaraq ki, regionda işçi sayında müəyyən artım müşahidə olunmuşdur, bu artım ölkə üzrə orta artım tempindən xeyli geri qalır. 2017-ci ildə rayonda 1.459 nəfər çalışdığı halda, 2024-cü ildə bu göstərici cəmi 1.462 nəfərə yüksəlmişdir. Bu isə səkkiz il ərzində yalnız 0,2%-lik çox cüzi artım deməkdir ki, bu da regionun mövcud potensialından tam şəkildə istifadə olunmadığını göstərir.

Zaqatala rayonu üzrə göstəricilər isə qeyri-sabit dinamika ilə xarakterizə olunur. 2017-ci ildə rayonda 62 nəfər çalışdığı halda, 2018–2020-ci illərdə bu göstərici 43–44 nəfər arasında dəyişərək azalma meyli göstərmişdir. 2024-cü ildə isə bu rəqəm 53 nəfərə qədər artmışdır. Bu dəyişkənlik Zaqatala rayonunda turizm sektorunun sabit inkişaf etmədiyini və regionun iqtisadi mühitinin turizm üçün yetərincə cəlbedici olmadığını göstərir.

Nisbi pay göstəricilərinə gəldikdə, Şəki-Zaqatala iqtisadi rayonunun ölkə üzrə payı 2017-ci ildə 14,6% olduğu halda, 2024-cü ildə bu göstərici 9,62%-ə enmişdir. Bu azalma regionun ölkə üzrə ümumi göstəricilərdə çəkisinin azaldığını və sektorda rəqabət qabiliyyətinin zəiflədiyini göstərir.

Zaqatala rayonunun ölkə üzrə payında da oxşar azalma müşahidə olunur. Belə ki, 2017-ci ildə 0,62% təşkil edən bu göstərici, 2024-cü ildə 0,35%-ə qədər geriləmişdir. Bu azalma rayonun turizm sahəsində iqtisadi aktivliyinin zəiflədiyini göstərir.

Şəki-Zaqatala iqtisadi rayonu çərçivəsində Zaqatala rayonunun payı 2017-ci ildə 4,25% təşkil etdiyi halda, 2024-cü ildə bu göstərici 3,63%-ə enmişdir ki, bu da rayonun regional kontekstdə də əvvəlki mövqeyini qoruyub saxlaya bilmədiyini göstərir. Bu hal göstərir ki, Zaqatala rayonunda mehmanxana sektorunun inkişaf etdirilməsi üçün əlavə stimullaşdırıcı mexanizmlərə, məqsədyönlü investisiya təşviqlərinə və turizm infrastrukturunun gücləndirilməsinə ehtiyac vardır.

***Turizm Klasterlərinin Yaradılmasında Marşrutların Rolu***

Rəqabətqabiliyyətli turizm klasterləri müxtəlif maraqlı tərəflərin – turizm operatorları, nəqliyyat xidmətləri və mədəniyyət obyektlərinin – sinerjisini tələb edir və bu əməkdaşlıq regional inkişaf üçün əsas mexanizmlərdən biri hesab olunur [17]. Marşrutların düzgün planlaşdırılması isə bu klasterlərin funksional strukturunu formalaşdırmaqla iqtisadi əlaqələri gücləndirir və dayanıqlı inkişafı təmin edir [11].

Zaqatala rayonunda ekoturizm, mədəni turizm və kənd turizmi sahələrində mövcud turizm potensialının sistemli şəkildə idarə olunması və marşrutların planlı şəkildə təşkili, regionda davamlı inkişafın təmin olunması baxımından vacibdir. Bu məqsədlə, turizm klasterlərinin formalaşdırılması, region daxilində müxtəlif sektorlarda fəaliyyət göstərən subyektlərin əlaqələndirilməsini və qarşılıqlı fəaliyyətini stimullaşdırır, eyni zamanda geniş bazarlara çıxış imkanlarını artırır. Nəticə etibarilə, bu yanaşma rayonun turizm sektorunun rəqabət qabiliyyətliliyini artırır və iqtisadi və sosial inkişafı dəstəkləyir. Bundan əlavə, təbii və mədəni resursların qorunması və səmərəli istifadəsi sahəsində təşkilati və idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi, ekoturizm və mədəni turizm sahələrinin qarşılıqlı inteqrasiyasını təşviq edərək sinergiya effektinin artmasına şərait yaradır. Bu tədqiqat çərçivəsində, Zaqatala rayonunun mövcud turizm marşrutları müəyyən meyarlar əsasında qruplaşdırılaraq, aşağıdakı cədvəldə (5) ilk dəfə olaraq kateqoriyalar üzrə təsnifat aparılmış və həmin marşrutlara uyğun rəqabətqabiliyyətli turizm klasterləri müəyyən edilmişdir.

**Cədvəl 5.**

Zaqatala rayonunda turizm marşrutlarının qruplaşdırılması və kateqoriyalar üzrə təsnifatı.

| Marşrut Kateqoriyası | Marşrutlar və Əsas Obyektlər | Turizm Klasterləri |
|---|---|---|
| **Tarixi və mədəni irs marşrutları** | - Car kəndi (Cingöz qalası, Şeytan qalası, XVII əsr məscidi);<br>- Aşağı Tala kəndi (Aşağı Tala məscidi, Ömər Əfəndi ziyarətgahı);<br>- Qəbizdərə kəndi (VIII–IX əsr məbədi);<br>- Kəbəloba kəndi (Kəbəloba qülləsi);<br>- Yuxarı Çardaxlar kəndi (III-IV əsr Qız qalası - Pəriqalası mağarası);<br>- Mamrux kəndi (dairəvi alban məbədi);<br>- Zaqatala Tarix-Mədəniyyət Qoruğu;<br>- Pipan Bazilikası (VII–VIII əsr) | "Arxeoloji və memarlıq abidələri, dini və etnoqrafik irs, xalq sənətkarlığı kimi dəyərləri özündə cəmləşdirən sənətkarlıq və əl işləri istehsalı müəssisələri." |
| **Aqroturizm marşrutları** | - Aşağı Tala kəndi (tütün və gül (qızılgül, lavanda, nanə plantasiyaları);<br>- Muğanlı kəndi ("Babək" və "Ülkər" üzümçülük təsərrüfatları);<br>- Bəhmətli, Göyəm, Suvagil, Yuxarı Tala və s kəndlərdə (heyvandarlıq və arıçılıq, balıqçılıq). Fındıq, qoz və şabalıd yığımı, kənd həyatı təcrübəsi, yerli məhsulların istehsalı | "Aqroturizmə yönəlmiş kənd təsərrüfatı obyektləri, təcrübə sahələri, fermer bazarları və təsərrüfatlar, üzüm bağları, çay plantasiyaları, orqanik məhsul istehsalı sahələri və digər əlaqəli sahələr" |
| **Ekoturizm marşrutları** | Qəbizdərə kəndi (şəlalə və meşəliklər); Qazangül kəndi (Sarı Göl, Ümid Gölü); Meşləş kəndi (Sarmaşıq şəlaləsi); Zaqatala Dövlət Təbiət Qoruğu (şəlalələr, Piçigel mağarası) | Ekoturizmə yönəlmiş turizm obyekt və müəssisələri; Qoruqlar, təbiət parkları, milli parklar və ekosistemə ziyan vurmayacaq digər məkanlar. |
| **Macəra və ekstremal turizmi marşrutları** | Yuxarı Çardaxlar kəndi (Xalaxel gölü); Katex və Qanslar şəlaləri (dağ yürüşləri və kampinq); Zaqatala Dövlət Təbiət Qoruğu (alpinizm və trekking) | "Ekoturizmə yönəlmiş turizm obyektləri və müəssisələri; qoruqlar, təbiət parkları, milli parklar və ekosistemə ziyan vurmayacaq digər məkanlar." |
| **Dini turizm marşrutları** | Aşağı Tala kəndi (Ömər Əfəndi ziyarətgahı); Danaçı kəndi (XIX əsrə aid məscidlər); Pipan Bazilikası (xristian dini abidəsi) | Dini inanc sistemlərinə və mədəniyyətlərə aid komplekslər, məscidlər, kilsələr, ziyarətgahlar, məbədlər və s. |

| | | |
|---|---|---|
| **Sağlamlıq və wellness turizm marşrutları** | Çimçimax, Əliabad, Qımır, Sabunçu, Mamrux, Yuxarı Çardaxlar kəndindəki sulfatlı-mineral bulaqlar, təbii müalicəvi sular (Zaqatala Dövlət Təbiət Qoruğu); Şamilovka yaylağı (təbiət və sağlamlıq yürüşləri) | Wellness otelləri, sağlıq mərkəzləri; Reabilitasiya mərkəzləri; Müalicəvi spa xidmətləri, bərpa proqramları və masaj terapiyası təklif edən mərkəzlər. Termal su mərkəzləri. |
| **Gastronomik turizm marşrutları** | Heyvandarlıq məhsulları əsasında yerli mətbəx nümunələri (bütün kəndlər); Aşağı Tala kəndi (gül məhsulları - gül çayı, gül şirniyyatı); Muğanlı kəndi (üzüm və şərab dadımı) | Restoran və kafelər. Yerli məhsul istehsalçıları, kənd təsərrüfatı və qida sənayesi sektorunda fəaliyyət göstərən müəssisələr. Şərab zavodları və pivə istehsalçıları və s. |
| **Urban (şəhər) turizmi marşrutları** | Zaqatala şəhər ekskursiyası (Tarix-Mədəniyyət Qoruğu, Dədə Qorqud Meydanı, Çinar ağacı, Qala düzü pilləkənləri və park) | Ticarət mərkəzləri və alış-veriş kompleksləri. Əyləncə parkları və kinoteatrlar. Muzeylər (tarix, sənət, arxeologiya, etnoqrafiya) və digər şəhər infrastruktur obyektləri. |

*Mənbə: Cədvəl tədqiqat əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

## YEKUN NƏTİCƏ

Zaqatala rayonunun zəngin təbii ehtiyatları, mədəni irsi, əlverişli coğrafi mövqeyi və çoxşaxəli turizm imkanları iqtisadi inkişaf və sosial rifah üçün geniş perspektivlər yaradır. Lakin mövcud vəziyyət bu imkanlardan tam və səmərəli şəkildə istifadə edilmədiyini göstərir.

Araşdırmalar göstərir ki, Zaqatala rayonunun Ərazi İqtisadi İnkişaf İndeksi (ƏİİI) üzrə aparılan təhlillər nəticəsində rayonun 0,67 göstərici ilə Şəki-Zaqatala iqtisadi rayonunun digər inzibati ərazi vahidləri ilə müqayisədə zəif iqtisadi inkişaf səviyyəsinə malik olduğu müəyyən olunmuşdur.

2017–2024-cü illər ərzində turizm gəlirlərində müəyyən artım müşahidə olunsa da, bu artımın tempi həm regional, həm də ölkə üzrə göstəricilərdən geridə qalır. Həmin dövr ərzində Zaqatala rayonunun ölkə üzrə turizm gəlirlərindəki payı 0,14%-dən 0,08%-ə qədər azalmışdır ki, bu da regionun turizm sektorunun rəqabət qabiliyyətinin zəif olduğunu göstərir.

Turizm sektorundakı zəif inkişaf, əsasən, turizm infrastrukturunun yetərsizliyi, investisiya təşviq mexanizmlərinin olmaması və klaster əsaslı yanaşmaların tətbiq edilməməsi ilə əlaqəlidir.

Araşdırmalar göstərir ki, turizm resurslarının sistemsiz idarə olunması, planlaşdırılmamış marşrutlar və zəif reklam strategiyaları, potensial turist axınının azalmasına və nəticədə məşğulluq səviyyəsinin aşağı qalmasına səbəb olur.

Ekoturizm, aqroturizm və mədəni turizm üçün geniş imkanlara baxmayaraq, Zaqatala rayonunda bu resurslardan istifadə sistemsiz və qeyri-planlı şəkildə həyata keçirilmişdir. Nəticə etibarilə, turizm sektorunun iqtisadi və sosial təsiri minimal səviyyədə qalır.

Aparılmış təhlillər göstərir ki, mövcud turizm obyektlərinin əsasən mövsümi xarakter daşıması və qeyri-rəsmi məşğulluğun geniş yayılması, sektorda dayanıqlı məşğulluğun formalaşmasına ciddi əngəl yaradır.

Nəticə olaraq, Zaqatala rayonunun turizm potensialının daha effektiv şəkildə istifadə edilməsi üçün bir sıra mühüm tədbirlər həyata keçirilməlidir. Bu tədbirlər arasında sistemli idarəetmə yanaşmalarının tətbiqi, infrastrukturun inkişafı, turizm sektorunda işçi qüvvəsinin rəsmi məşğulluğa cəlb edilməsi və qeyri-rəsmi məşğulluğun azaldılması, düzgün planlaşdırılmış turizm marşrutları və klaster yanaşmalarının tətbiqi əsas yer tutmaqdadır. Bu məqsədlə aşağıdakı tədbirlər təklif olunur:

1. Ekoloji cəhətdən dayanıqlı eko-otellərin və turizm marşrutlarının yaradılması, yalnız biomüxtəlifliyin qorunmasına dəstək olmaqla yanaşı, yerli icmaların iqtisadi fəallığının artırılmasına, sosial rifahının yüksəldilməsinə və təbii resursların davamlı idarə olunmasında iştirak səviyyəsinin yüksəlməsinə də xidmət edəcəkdir.

2. Kənd və şəhər arasındakı əlaqələrin gücləndirilməsi, həmçinin tarixi və memarlıq abidələrinin bərpası, regional turizmin rəqabət qabiliyyətini artıraraq, turizm marşrutlarının cəlbediciliyini yüksəldə bilər. Bu prosesdə ekoloji cəhətdən təmiz nəqliyyat vasitələrinin (məsələn, elektrikli nəqliyyat vasitələri və velosiped icarəsi) istifadəsi, davamlı turizmin inkişafını stimullaşdırmağa xidmət edəcəkdir.

3. Zaqatala rayonunun dağlıq ərazilərində müasir və təhlükəsiz turizm infrastrukturunun yaradılması, regionun ekoturizm potensialının maksimal şəkildə reallaşdırılmasını təmin edəcəkdir. Rafting, trekkinq, haykinq və alpinizm kimi açıq hava fəaliyyətləri təbiətsevərlərin marağını cəlb etməklə yanaşı, yerli əhali üçün əlavə gəlir mənbələri də yaradacaqdır.

4. Zaqatala rayonunda turizm sahəsinin digər iqtisadi sektorlarla inteqrasiyasının gücləndirilməsi və turizm klasterlərinin yaradılması regional turizmin rəqabət qabiliyyətini artırmağa xidmət edəcəkdir. Klaster əsaslı yanaşma çərçivəsində otelçilik, iaşə, nəqliyyat, bələdçilik və əyləncə sahələrinin birgə fəaliyyəti, sinerji effekti yaradaraq turizm məhsullarının keyfiyyətinin artırılmasına səbəb olacaqdır.

5. Ekoturizm və aqroturizm fəaliyyətlərinin kənd təsərrüfatı ilə uzlaşdırılması, regionda mövsümi məşğulluq problemlərinin həllinə və iqtisadi fəaliyyətlərin şaxələndirilməsinə yönəlmiş təsirli model kimi çıxış edərək, ənənəvi əkinçilik və heyvandarlıqla məşğul olan əhali üçün turizm xidmətləri (məsələn, qonaq evləri, kənd həyat tərzi ilə tanışlıq və yerli məhsulların təqdimatı) vasitəsilə əlavə gəlir mənbəyi yaradar.

6. Turizm fəaliyyətlərinin genişləndirilməsi, gənclərin və qadınların əmək bazarına inteqrasiyasını sürətləndirərək onların sosial-iqtisadi rifahını artırmağa şərait yaradacaqdır.

7. Az büdcəli və aşağı ulduzlu yerləşdirmə obyektlərinin inkişafı, müxtəlif gəlir qruplarına xidmət edən turizm məhsullarının əlçatanlığını təmin etməklə yanaşı, yerli əhali üçün yeni iş yerləri yaradaraq mikroiqtisadi dinamikanı artıracaq və regional tədarük zəncirinin güclənməsinə dəstək olacaqdır.

8. Lokal mətbəx nümunələrinin (məsələn, maxara, sürhüllü, buğ xingəli, cincar (gicitkən) girsi/qutabı) və sənətkarlıq nümunələrinin beynəlxalq auditoriyaya təqdim edilməsi, regionun mədəni kimliyinin qorunmasına xidmət edərək turistik cəlbediciliyi artıracaqdır. Folklor və kulinariya festivalları, mədəni diplomatiya aləti olaraq, turizm axınlarını idarə etmədə mühüm rol oynayacaqdır.

9. Yerli və beynəlxalq dillərdə hazırlanan turist xəritələri, virtual turlar və interaktiv veb resurslar vasitəsilə turistlərə səyahət planlaması və məlumatlı qərarlar qəbul etmək imkanı veriləcək, nəticədə onların təcrübələri daha zənginləşəcəkdir.

## ƏDƏBİYYAT

1. Abadov, M. K. Azərbaycan turizmi və onun inkişaf problemləri / M.K. Abadov. – Bakı, 2014. – 152 s.

2. Azərbaycan Respublikası Prezidentinin 15 sentyabr 2008. № 3043 saylı Sərəncamı. “2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı” https://e-qanun.az/framework/15399

3. Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 6 aprel tarixli № 838 saylı Sərəncamı. "Azərbaycan Respublikasında 2010 — 2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında. https://e-qanun.az/framework/19342

4. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı. Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi. https://president.az/az/articles/view/22134

5. Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2022-ci il tarixli № 3378 saylı Sərəncamı. “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın təsdiq edilməsi haqqında. https://e-qanun.az/framework/50013

6. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Regionlar. Şəki - Zaqatala iqtisadi rayonu. Zaqatala rayonu. 2024. https://www.stat.gov.az/source/regions/

7. Azərbaycan Respublikasının Regional Coğrafi Problemləri. Şəki-Zaqatala İqtisadi Rayonu. – Bakı, 2003. – 190 s.

8. Azərbaycan Respublikasının regional coğrafi problemləri. Zaqatala rayonu. – 2000.– 82 s.

9. Bəhərçi, T., Mehdiyeva, V.Z. Azərbaycan Respublikasının təbii şəraiti, təbii ehtiyatları, onların iqtisadi-ekoloji qiymətləndirilməsi. – Bakı, 2012. – 304 s.

10. Budaqov, B. Azərbaycanın təbiət abidələri / red. H.Ə. Əliyev; AzSSR EA, Coğrafiya İn-tu. – Bakı: Elm, 1990. – 178 s.

11. Cruz, S. P., de Almeida, C. R., Pintassilgo, P., & Raimundo, R. Sustainable drive tourism routes: A systematic literature review // Social Sciences, 2022, 11(11), p. 1–18.

12. Əhmədov, N. Şəki–Zaqatala regionunda təbii sərvətlərdən səmərəli istifadənin bəzi məsələləri // Regional idarəetmə: innovativ yanaşmalar və perspektiv imkanlar. Respublika elmi-praktik konfransın materialları. – Bakı: Elm və Təhsil, – 2015. – s. 311.

13. Əzəmmədov, S. Şəki-Zaqatala regionunun müasir sosial-iqtisadi inkişafının əsas istiqamətləri // Təfəkkür Jurnalı. – 2015. – №1(7). – 105 s.

14. Hall, C. M., Lew, A. A. Understanding and managing tourism impacts: An integrated approach. – London: Routledge, 2009. – 260 p.

15. İmrani, Z. T., İsmayılova, A. Ç. Şəki-Zaqatala iqtisadi-coğrafi rayonunda əhalinin məşğulluq probleminin həllində turizm təsərrüfatının rolu. Pedaqoji Universitetin Xəbərləri. Riyaziyyat və təbiət elmləri seriyası. – 2020. – c. 68, №2. – s. 113–122.

16. Qurbanov F. İ. Azərbaycanda turizmin inkişaf problemləri / F.İ.Qurbanov. – Bakı: - Adiloğlu, -2007, - 344 s.

17. Məmmədov, E. Q. Azərbaycanda turizm bazarının formalaşması və idarə olunmasının regional xüsusiyyətləri. – Bakı: Gənclik Nəşriyyatı, – 2013. – 196 s.

18. Məmmədov, Q.Ş. Azərbaycan: ekoturizm potensialı: I cild. – Bakı, “Şərq-Qərb”, 2012. – 359 s.

19. Müseyibov, M.A. Azərbaycanın fiziki coğrafiyası. – Bakı: Maarif, 1998. – 400 s.

20. Rəsulova, M. Şəki-Zaqatala bölgəsində rekreasiya-turizmin inkişaf perspektivləri. Turizm və Qonaqpərvərlik tədqiqatları. – Bakı: BROSS-44 MMC, – 2016. – s. 92–101.

21. Scheyvens, R., Russell, M. Tourism and poverty reduction: Issues for small island developing states // Tourism Geographies. – 2012. – Vol. 14, No. 1. – p. 1–22.

22. Sezgin, M., Karaman, A. Turistik destinasyon çerçevesinde sürdürülebilir turizm yönetimi ve pazarlaması // Selçuk Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi. – 2008. – №19. – s. 432–440.

23. Soltanova, H.B. Azərbaycan Respublikasında turizm və onun inkişafı. – Bakı, "AzTU", 2015. – 475 s.

24. Şəki-Zaqatala iqtisadi rayonu üzrə 2024-cü ilə dair "Mehmanxanaların (hotellərin) və mehmanxana tipli obyektlərin fəaliyyəti" haqqında bülleten. Bakı 2025. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. https://www.stat.gov.az/source/tourism/az/bul/Mehmanxana_2024_illik.zip

25. Zaur İmrani, Xədicə Bədəlova (2019). Dağlıq rayonların sosial-iqtisadi inkişafında turizm-rekreasiyası ehtiyatlarının rolu (Şəki-Zaqatala iqtisadi-coğrafi rayonu timsalında) səh. 389-394 https://wcu.edu.az/uploads/files/Dağlar_konfrans%20materiali.pdf

26. Лопатников, Д. Л., Эстеров, А. И. Возможности использования индекса хозяйственного развития территорий в сравнительном экономико-географическом анализе // Известия Российской академии наук. Серия: Географическая. – 1997. – №2. – с. 160.

## TOURISM POTENTIAL OF THE ZAGATALA DISTRICT: DEVELOPMENT PROSPECTS AND CURRENT EMPLOYMENT OPPORTUNITIES

**A.Ch. Ismailova**

The article investigates the tourism potential of the Zagatala district and the possibilities of addressing employment issues among the population by utilizing this potential. Within the scope of the study, the region's natural-landscape features, cultural heritage, and opportunities for ecotourism and agrotourism were assessed, and the current state of infrastructure was analyzed. A SWOT analysis was conducted based on interviews with experts, reports from local administrative bodies, and data from enterprises operating in the tourism sector. The results of the analysis show that the tourism sector in Zagatala district possesses high potential; however, there are challenges such as weak infrastructure, underdeveloped marketing strategies, and the need to improve the quality of tourism services.

In addition, the level of employment of the local population in the tourism sector, the main challenges faced, and the prospects for future development were explored. Furthermore, proposals were made to ensure sustainable development through the promotion of alternative types of tourism (such as ecotourism and agrotourism), the identification of new tourism routes, and the implementation of clustering strategies.

**Keywords:** *Zagatala, employment, socio-economic development, alternative tourism, tourism clusters, tourism routes*

# ТУРИСТИЧЕСКИЙ ПОТЕНЦИАЛ ЗАГАТАЛИНСКОГО РАЙОНА: ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ И СУЩЕСТВУЮЩИЕ ВОЗМОЖНОСТИ ЗАНЯТОСТИ

**А.Ч. Исмайлова**

В статье исследуется туристический потенциал Загатальского района и возможности устранения проблем занятости населения за счёт использования этого потенциала. В рамках исследования были оценены природно-ландшафтные особенности региона, культурное наследие, возможности экотуризма и агротуризма, а также проанализировано состояние существующей инфраструктуры. На основе интервью с экспертами, отчетов органов местного самоуправления и данных предприятий, действующих в туристическом секторе, был проведён SWOT-анализ. Результаты анализа показывают, что туристический сектор Загатальского района обладает высоким потенциалом, однако существует необходимость улучшения инфраструктуры, маркетинговых стратегий и повышения качества туристических услуг.

Кроме того, были изучены уровень занятости местного населения в сфере туризма, основные трудности и перспективы дальнейшего развития сектора. Также были выдвинуты предложения по обеспечению устойчивого развития через развитие альтернативных видов туризма (экотуризм, агротуризм и др.), определение новых туристических маршрутов и кластеризацию.

**Ключевые слова:** *Закаталы, занятость, социально-экономическое развитие, альтернативный туризм, туристические кластеры, туристические маршруты*